**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN QƏHRƏMANLIQ DASTANLARINDA TƏRBİYƏVİ İDEYALAR VƏ ONUN SİSTEMİ

İxtisas: 5804.01- Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

**İddiaçı: Kəmalə Yaşar qızı Yusifova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyasının

**A V T O R E F E R A T I**

**BAKI – 2022**

Dissertasiya işi Bakı Mühəndislik Universitetinin Pedaqogika kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika üzrə fəlsəfə doktoru, professor
**İramin Namaz oğlu İsayev**

Rəsmi opponentlər: pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**
pedaqogika üzrə elmlər doktoru, professor
**Hümeyir Hüseyn oğlu Əhmədov**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Nigar Eldar qızı Zeynalova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix üzrə elmlər doktoru, professor

**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi

**Fərrux Abbas oğlu Rüstəmov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Etnokulturoloji sistemin bir bütöv olaraq müxtəlif aspektlərdə təhlilə gətirilməsi bütünlükdə milli-mənəvi yaddaşın məzmununa olan marağın nəticəsidir. Elmi-pedaqoji, ictimai-siyasi, ədəbi-mədəni müstəvilərdə mahiyyətin konseptual şəkildə nəzərdən keçirilməsi etnomədəni sistemin daha dərin qatlarını, genetik fakturasında qəlibləşən kodların açılmasını problem olaraq aktuallaşdırır. Çağdaş pedaqoji fikrin həssaslığında və strateji hədəfində dayanan mühüm məsələlərdən biri millilik kontekstində xalq pedaqogikasına, onun polifonik (çoxsəsli) mahiyyətində dayananlara üfiqi və şaquli müstəvidə artan maraqla faktlaşır. "Xalq yaradıcılığını xalq pedaqogikasının ilk müjdəçisi" adlandıran görkəmli fikir adamlarının təhlillərində özünə yer alan təlim, tərbiyə, təhsil problemləri müxtəlif müstəvilərdə mahiyyətin aydınlaşmasını önəmli məsələ kimi qarşıya qoyur. Bütün bunların fövqəlzamanlılıq və fövqəlməkanlılıq (vacib olan zaman və məkanda) anlamında daşınışı xalqın zəngin folklor mədəniyyətində özünün ifadəsini daha dolğun, həm də aparıcı müstəvidə göstərə bilir. Ulu öndər H.Əliyev mahiyyətə yönəlik məsələ kimi bunlara diqqəti yönəldərək deyirdi: *"Zəngin tariximizi əks etdirən çox əsərlər var, kitablar var, maddi əşyalar var. Ancaq bunların hamısının içərisində bizim milli mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi əks etdirən əsərlər hamısından qiymətlidir və bu gün üçün, gələcək üçün hamısından da gərəklidir"*[1]. Doğrudan da, zəngin xalq mərasimləri, inam və etiqadları, əfsanə, rəvayət, nağıl, atalar sözü, nəğmə, bayatı, musiqi və s. örnəkləri geniş fakturada təlim-tərbiyənin ümumi axarını, "xalq pedaqogikası" adı ilə formalaşan təsəvvürün invariantlarını müəyyənləşdirməyə imkan yaradır.

Mifdən eposa, oradan da dastan mühitinə daşınan bu zənginlik tarixin bütün dönəmlərində ana xətti saxlamaqla həmişə ezoterik (hamıya məlum olan) və ekzoterik (daha dərin olanın) mahiyyətinə diqqət yetirməyi bir zərurət olaraq gərəyə çevirir. Bunların aydınlığı və nələrlə

[1] Ozan-aşıq ensiklopediyası. (yaradıcı heyət: M.Qasımlı, M.Allahmanlı, İ.Köçərli, K.Dadaşzadə). 2 cilddə, I c., Bakı: Gənclik, 2019, s.464

əhatələnməsi, həm də ana xəttin  bir təsəvvür, mədəniyyət kodu olaraq şifrələnməsi baxımından dastanların xüsusi rolu vardır. “Kitabi-Dədə Qorqud”, “Qara Məlik”, “Şah İsmayıl”, “Koroğlu”, “Molla Nur”, “Qaçaq Nəbi”, “Qara Tanrıverdi”, “Qandal Nağı”, “Dəli Alı”, “Qaçaq Kərəm”, “Səməd bəy”, “Qaçaq Yədulla”, “Səttarxan” və s. kimi dastan nümnunələrinin bu müstəvidə verdiyi informasiya və formalaşdırdığı təsəvvür özlüyündə problemə (tərbiyəvi ideyaların sisteminə) sinxron və diaxron yanaşmaları aktuallaşdırır.

Qəhrəmanlıq dastanları xalqın qəhrəmanlıq tarixidir. Ən dərin və parlaq,  həm də ən mükəmməl qəhrəman obrazlarının xalq tərəfindən yaradılmasını da buraya əlavə etdikdə məsələnin mahiyyəti etnik şüurun əhatələdiyi sistem səviyyəsində konseptual yanaşmaları zəruriləşdirir. Xalqın milli-mənəvi mədəniyyətinə, möhtəşəm abidələrinə və gənc nəslin bu ruhda tərbiyəsinə diqqət yönəldən Azərbaycan prezidenti İ.Əliyev xüsusi həssaslıqla vurğulayır: *“Gənc nəsil vətənpərvərlik və milli ruhda tərbiyə almalıdır. Həmişə gənclərlə görüşlər zamanı  bunu qeyd edirəm ki, gənclər bilikli, Vətənə bağlı olmalıdır, vətənpərvər və milli ruhda böyüməlidir”*[2]. Bütün bunların isə qaynağı bir istiqamətdə xalqın şifahi yaradıcılığı, qəhrəmanlıq dastanlarıdır. Kifayət qədər paradiqmatik məzmunla səciyyələnən dastan mühiti təlim, tərbiyə timsalında, daha doğrusu, onların ümumi vasitə və metodları timsalında mükəmməl təsəvvürlə müəyyənləşir. Əqli və fiziki tərbiyədən ideya-mənəvi tərbiyəyə qədər geniş bir faktura ilə əhatələnən Azərbaycan qəhrəmanlıq dastanları həm də estetik tərbiyənin ən möhtəşəm mənbələrindən biri kimi də tipoloji yanaşmaları gərəkli edir. Türk və dünya dastan ənənəsində (“Bilqamıs”, “Manas”, “Alpamış”, “Oğuz Kağan”, “Uralbatır”, “Corabatır”, “Edige”, “Alp-ər Tonqa”,  “Şu”, “Ərqənəkon”, “Boz yigit”, “Maday Kara”, “Beovulf”, “Sid haqqında dastan”, “Kuxullin haqqında dastan”, “Saqa”, “Tristan və İzolda” və s.) öz möhtəşəmliyi ilə səciyyələnən Azərbaycan qəhrəmanlıq dastanları təkcə bədiilik kontekstində deyil, həm də əxlaq və mənəviyyat toplusu

---

[2] Ozan-aşıq ensiklopediyası. (yaradıcı heyət: M.Qasımlı, M.Allahmanlı, İ.Köçərli, K.Dadaşzadə). 2 cilddə, I c., Bakı: Gənclik, 2019, s. 342

olaraq əvəzsiz zənginliklə səciyyələnir. Böyük rus pedaqoqu K.D.Uşinskinin zəngin xalq yaradıcılığı kontekstində məsələyə yanaşaraq qeyd edirdi ki, nağıllar xalq pedaqogikasının ilk cəhdidir, bununla heç bir rəsmi pedaqogika yarışa bilməz. Qəhrəmanlıq dastanları da öz mahiyyəti, ehtiva etdiyi məzmunla bura daxildir. "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Qara Məlik", "Şah İsmayıl", "Qaçaq Nəbi", "Qara Tanrıverdi", "Qandal Nağı" və s. kimi çeşidli mənəviyyat abidələrinin mahiyyətindəki şəxsiyyət formulu, kutsal dəyərlərin toplum səviyyəsində formalaşdırdığı təsəvvür, etnosun törə münasibətləri, tərbiyənin bütün parametrlərdə müəyyənləşdirdiyi məzmun daha geniş müstəvidə yanaşmaları gərəkli edir. Bütün bunlar müstəvisində Azərbaycan qəhrəmanlıq dastanlarının əski çağlardan günümüzə daşıyıb gətirdiklərinin aydınlaşması ən önəmli məsələlərdən biri olaraq aktuallıq kəsb edir.

*Mövzunun öyrənilmə dərəcəsinə* gəldikdə qeyd etməliyik ki, Azərbaycan pedaqoji fikrinin görkəmli nümayəndələri Ə.Y.Seyidov, Ə.Ş.Həşimov, Y.R.Talıbov, H.M.Əhmədov, N.M.Kazımov, Ə.Ə.Ağayev, Ə.X.Paşayev, F.A.Rüstəmov, İ.İ.Əliyev, F.B.Sadıqov, R.L.Hüseynzadə, İ.N.İsayev və başqaları bu sahədə uğurlu tədqiqat işləri aparmışlar. Qeyd etmək lazımdır ki, prof. Ə.Ş.Həşimov bu sahənin pioneri hesab edilir.

Ə.Həşimovun "Azərbaycan şifahi xalq ədəbiyyatında tərbiyəvi fikirlər" (1958), "Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri" (1970) "Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə" (1991) və s. əsərləri xüsusilə mühüm əhəmiyyət kəsb edir. Ə.S.Bədəlovanın "Azərbaycan xalq pedaqogikası" (2009), P.Həsənovanın "Kitabi-Dədə Qorqud" dastanında mənəvi tərbiyə məsələləri" (2015) monoqrafiyası da aktuallığı ilə seçilir. Azərbaycan qəhrəmanlıq dastanlarında tərbiyə problemi geniş müstəvidə işlənilməmişdir.

**Tədqiqatın obyektini** Azərbaycan qəhrəmanlıq dastanları təşkil edir.

**Tədqiqatın predmetini** qəhrəmanlıq dastanlarının ehtiva etdiyi tərbiyəvi ideyalar (əqli, əxlaqi, etik, estetik və fiziki tərbiyə ) təşkil edir.

**Tədqiqatın məqsədi** Azərbaycan qəhrəmanlıq dastanlarının tərbiyəvi istiqamətlərini müəyyənləşdirməkdən, böyüyən nəslin əqli, əxlaqi, etik, estetik, fiziki tərbiyəsinin məzmunu, prinsip, üsul və təşkili formaları ilə bağlı etnopedaqoji fikirləri sistemləşdirməkdən və müasir tərbiyə təcrübəsində istifadəsinin sistemini yaratmaqdan ibarətdir.

**Tədqiqatın vəzifələri** aşağıdakılardır:

-dastan fakturasında özünə geniş yer alan etnokulturoloji sistemin ümumi aspektlərini aydınlaşdırmaq;

-qəhrəmanlıq dastanlarının genologiyasında aparıcı xətti təşkil edən tərbiyə məsələlərinin məzmun qatlarını aşkarlamaq;

-mifdən eposa, oradan da qəhrəmanlıq dastanlarına gələn tarixi-mədəni axarda şəxsiyyət və etnos müstəvisində olanları tipoloji təhlilə gətirmək;

-törə, kutsal yadddaş modelləri anlamında Azərbaycan epos mühitində olanların müqayisəli təhlilini vermək, cəmiyyət və fərd timsalında müəyyənləşmiş təlim və tərbiyə üsullarını açıqlamaq;

-"Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi möhtəşəm abidələrdə təlim və tərbiyyənin ümumi sistemini müəyyənləşdirmək;

-dastan mühitində nəzərə çarpan tərbiyə metodlarının milli və lokal xarakterində özünü göstərən spesifik xüsusiyyətləri aydınlaşdırmaq;

-ideya-mənəvi tərbiyə, fiziki və estetik tərbiyə müstəvisində invariantı tarixi-mədəni axarda ayrı-ayrı dastan nümunələrində izləmək;

-əqli tərbiyə və əxlaq tərbiyəsi anlamında törələrin ortaya qoyduğu təfəkkür və təsəvvür intelleksiyasını açıqlamaq;

-qaçaq dastanlarında şəxsiyyət və toplum timsalında mövcud modellərini aşkarlamaq;

-dastanlarda qadınların ailədə övladların tərbiyəsində mühim və danılmaz rolu olduğunu diqqətə çatdırmaq;

-Azərbaycan qəhrəmanlıq dastanlarında tərbiyənin ümumi sistemini, mahiyyət və prinsiplərini müəyyənəlşdirmək və onun məzmunu haqqında dolğun təsəvvür formalaşdırmaq və s.

**Tədqiqatın metodları:** nəzəri, tarixi-müqayisəli təhlil, elmi-pedaqoji mənbələrin, xalq pedaqogikası nümunələrinin öyrənilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan qəhrəmanlıq dastanlarında tərbiyəvi ideyaların sistemli təhlili kifayət qədər ciddi elmi yeniliklərlə müəyyənləşir.

-qəhrəmanlıq dastanları xalqın etnomədəni potensiyasını (gücünü) bütün aspektləri ilə əks etdirmək baxımından əvəzsiz mənbədir;

-"xalq yaradıcılığı və xalq pedaqogikası" müstəvisində qəhrəmanlıq dastanları ciddi faktura (xüsusiyyətləri) ilə müəyyənləşir;

-mif-epos-dastan timsalında tarixi-mədəni axarın kutsal (işlənilmə tezliyi) klişelər( təsirini itirmiş fikirlər), törələr baxımından formalaşmasının ümumi mahiyyətini əks etdirmək potensiyası ilə faktlaşır;

-etnokulturoloji yaddaşın arxaik kodlarını və onların nələrlə səciyyələnməsini aydınlaşdırmaq baxımından funksional xarakteri ciddi əhəmiyyət daşıyır;

-əski və orta çağ təlim-tərbiyə üsul və metodlarının ümumi məzmunun nələrlə səciyyələnməsi baxımından mükəmməl faktura ilə maraq doğurur;

-etnosun etnik milli-mənəvi dəyər, əxlaq tərbiyəsi, əqli və fiziki tərbiyə kontekstində təfəkkür potensiyasını özündə ehtiva edə bilmək gücü ilə səciyyələnir;

-şəxsiyyət və mühit, fərd və kollektiv timsalında kutsallıq modellərinin ən mükəmməl qaynağı olaraq qəhrəmanlıq dastanları üfiqi və şaquli aspektdə etnik şüurun məzmun parametrlərini müəyyənləşdirir və s.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Qəhrəmanlıq dastanlarında özünə geniş yer alan böyüyən nəslin təlim -tərbiyəsi, onun genetik formulası və tarixi dinamikası, ayrı-ayrı dövrlərdəki ümumi mənzərəsinin təhlil və yanaşma üsulları əsaslı mənbə kimi mühüm əhəmiyyət daşıyır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat materiallarından ali pedaqojı məktəblərin tədris planında yer tutan "Azərbaycan məktəb və pedaqoji fikir tarixi", "Etnopedaqogika" kurslarının tədrisində, "Azərbaycan pedaqoji fikir tarixi" antologiyasının hazırlanmasında, xalq pedaqogikası ilə bağlı mühazirə və seminar məşğələlərində istifadə etmək olar.

**Müdafiəyə təqdim olunan müddəalar:**

-qəhrəmanlıq dastanları tərbiyəvi fikir və ideyaların, tərbiyənin ən mühim problemlərindən olan şəxsiyyət və mühit məsələləri baxımından əsaslı mənbədir;

-etnokulturoloji düşüncədə tərbiyənin üsulları (inandırma, alışdırma, nümunə, nəaihət, rəğbətləndirmə, cəza), arxaik yaddaşda onun özünəməxsusluq mənzərəsi bir bütöv olaraq qəhrəmanlıq dastanlarında əksini tapmışdır;

- qəhrəmanlıq dastanları etnosun əxlaq, mənəviyyat dərsliyidir;

-tərbiyə və onun tərkib hissələri (əqli tərbiyə, əxlaq tərbiyəsi, fiziki tərbiyə, əmək tərbiyəsi və s.) dastan yaddaşında bir tabu (qayda-qanun) olaraq öz ifadəsini tapır;

- ailə tərbiyəsi, ailə münasibətləri, ailə tərbiyəsində qadının rolu, əcdadlara ehtiram baxımından dastanlar mükəmməl örnəkdir və s.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Bakı Mühəndislik Universitetinin Pedaqogika kafedrasında hazırlanmışdır. Tədqiqatın əsas müddəa və nəticələri nüfuzlu elmi jurnallarda, iddiaçının müxtəlif beynəlxalq səviyyəli konfranslardakı çıxışlarında özünün əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş (13691işarə), I fəsil (131038işarə), II fəsil (120191işarə), nəticə (7775 işarə) və istifadə edilmiş ədəbiyyatın siyahısından ibarətdir. Cəmi 289049 işarə.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı, obyekti, predmeti, məqsəd və vəzifəsi, işlənmə dərəcəsi, elmi yeniliyi, müdafiəyə çıxarılan müddəalar əsaslandırılır, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası açıqlanır.

Dissertasiyanın **"Azərbaycan qəhrəmanlıq dastanlarında tərbiyə problemlərinin əsas istiqamətləri"** adlanan birinci fəsildə problem üç paraqrafda həllini tapır. "***Problemin ədəbi, elmi-pedaqoji ədəbiyyatda tədqiqi"*** adlanan birinci paraqrafda məsələyə ümumiləşdirici münasibət bildirilir və vurğulanır ki, qəhrəmanlıq dastanları bütün aspektləri ilə türk xalqlarının, eləcə də onun bir qövmü olan Azərbaycan xalqının milli-

mənəvi potensiyasını, əxlaq və davranış sistemini əhatələmək baxımından əvəzsiz mənbədir. Ümimiyyətlə, dastanlar öz funksiyonal mahiyyəti və çəkisi ilə təkcə etnosun tarixi-mədəni, bədii-estetik düşüncəsini, həyat yolunu əhatələmək gücü ilə məhdudlaşmır, həm də onun bu möhtəşəmliyi qoruyub gələcəyə daşıyacaq baxımından mükəmməl tərbiyə və təlqin fakturası ilə də əbədibiyaşarlıq qazanır.

Dünya şöhrətli bu abidələrin sinxron və diaxron müstəvidə ədəbi və elmi-pedaqoji mühitdə tədqiqinin möhtəşəm bir tarixi vardır. Avropada Y.Reyski, Fleyşer, F.Dits, T.Nyoldeke, İ.Şopen, J.Sand, V.V.Bartold, Türkiyədə K.Rüfət, M.F.Köpürlüzadə, Ə.İnan, P.Naili, M.Ergin, O.Ş.Gökyay, Rusiyada V.M.Jirmunski, A.İ.Şerbak, A.Q.Tumanski, A.Y.Yakubovski, V.Y.Propp, A.Kononov, X.Q.Keroqlı, Azərbaycanda Ə.Abid, Ə.Seyidov, Ə.Qarabağlı, M.H.Təhmasib, H.Araslı, M.Seyidov, Ş.Cəmşidov, T.Hacıyev, P.Əfəndiyev, V.Vəliyev, Ə.Həşimov, Y.Talıbov və onlarla başqaları müxtəlif səviyyələrdə fikir söyləmişlər.

Ə.Qaracadağinin toplusunda verilən bilgilər (1804), eləcə də XIX əsrin 30-cu illərində A.Xodzko, S.Penni, J.Sand tərəfindən görülən işlər, İ.Münşinin, H.Rumlunun, Ö.Çələbinin kəndli üsyanları barədə verdiyi məlumatlar, B.Behcətin, V.Xuluflunun, H.Əlizadənin, M.H.Təhmasibin və s. söylədiyi mülahizələr bir istiqamətdə qəhrəmanlıq timsalında dastanların tərbiyəvi mahiyyətini aydınlaşdırmağa hesablanır. Məsələn, "Koroğlu" dastanını Avropa mühitinə təqdim edən İ.Şopen "Ker-oğlı-tatarskaya leqenda"da (1840) Koroğlunu zəiflərin pənahı kimi yüksək qiymətləndirir və Qıratı necə qaytarmasını ("Həmzənin Qıratı qaçırması" qolu əsasında), Çənlibeli mərdliklə qorumasını diqqət önünə gətirir[3].

Qəhrəmanlıq dastanlarının ümumi mahiyyətində dayanan sistemi (əxlaq tərbiyəsi, fiziki tərbiyə, estetik tərbiyə, əmək tərbiyəsi, əqli tərbiyə, ideya-mənəvi tərbiyə, şəxsiyyət tərbiyəsi və s.) açmaq, onun müxtəlif istiqamətlərdə mahiyyətinə diqqət yetirmək bütün təhlillərdə bir tərəf kimi özünə yer alır. *"Kitabi-Dədə Qorqud" dastanlarında ailə*

---

[3] Шопен И. «Кер-оглы». Татарская легенда. «Маяк современного просвешения и образованности» / Труды ученных и литератураведов русских и иностранных. Резд. В Поляноиа. СПб, 2 част, глава 3, 1840, с. 12-25.

*cəmiyyətin əsas və müqəddəs bünövrəsi kimi təsvir edilir, eyni zamanda ailənin möhkəm zəmin üzərində dayanmasında qadın mühüm rol oynayır. Ona görə də dastanda ağıllı, evdar və kişinin ləyaqətini, namusunu gözləyən qadınlar böyük məhəbbətlə tərənnüm olunur. Bu qəbildən olanlara "ana haqqı, tanrı haqqı" deyirlər"*[4].

Dastanların toplanması və təhlili baxımından xüsusi gərəkli işlərə imza atmış görkəmli maarif xadimi M.Mahmudbəyov qəhrəmanlıq dastanlarının mahiyyət və ideyasına diqqət yetirir, oradakı ayrı-ayrı tərbiyəvi, əxlaqi, mənəvi dəyərlərə xüsusi həssaslıq göstərir. "Koroğlu" və "Qaçaq Kərəm" dastanı əsasında ciddi təhlillər aparır: *"Kərəm İrəvan və Qazax əyalətlərində on il bundan əvvəl fəaliyyət göstərmişdir. Həmin hekayət Qazax və Borçalı bölgələrində "Koroğlu" qədər yayılmışdır və məşhurlaşmışdır"*[5].

XIX əsr rus mətbuatının səhifələrində Azərbaycan dastan nümunələrindən müəyyən epizodlar və ayrı-ayrı dastanlar, eləcə də onlar haqqında mülahizələr özünə artan istiqamətdə yer almağa başlayır. "Tiflisskie vedomosti", "Kavkaz", "Kavkazskiy vestnik", "Novoye obozreniye", SMOMPK və s. mətbu orqanlarının səhifələrində gedən çeşidli örnəklər buna nümunədir. Məsələn, A.N.Samoyloviç "Dədə Qorqud və Koroğlu haqqında əfsanə" adlı məqaləsində qəhrəmanlıq dastanlarındakı qəhrəman və mühit məsələsinə geniş yer vermişdir.

Qəhrəmanlıq dastanlarında tərbiyə və onun ümumi istiqamətlərinin təhlili XX əsrin əvvəlləri ilə, daha doğrusu, sovetlər dönəmi ilə yeni sferaya daxil olur. Ümumiyyətlə, xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi istiqamətində olan canlanma, Azərbaycan ziyalılarının bu prosesə bir mədəni hərəkat olaraq qoşulması, hətta təşkilatlanma (Azərbaycanı tədqiq və tətöbbö cəmiyyəti, Azərbaycanı öyrənmə yolu və s.) kifayət qədər ciddi nəticələrin əldə olunması üçün əsas oldu. H.Zeynallının, V.Xuluflunun, H.Əlizadənin dastanlar ətrafında söylədiyi mülahizələr, apardığı təhlillər mahiyyətəyönəlikli məsələ kimi maraq doğurur.

---

4 Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, s. 312

5 Mahmudbəyov M. Zaqafqaziya tatarlarının poeziyasından. "Kaspi" qəzeti, 1898, № 9.

XIX əsrin sonu XX əsrin əvvəllərinin görkəmli simalarından olan B.Behcətin "Qaçaq Nəbinin tarixi (vəsiqə və sənədlər üzrə)" əsəri xalqın qəhrəmanlıq tarixinin öyrənilməsində əsaslı qaynaqdır. M.Ə.Rəsulzadə, Ə.H.Tahirov, Ə.Axundov, M.H.Təhmasib, P.Əfəndiyev, V.Vəliyev, İ.Abbaslı, S.P.Pirsultanlı, A.Nəbiyev, M.Allahmanlı və başqaları "Qaçaq Nəbi" dastanı və onun məzmun xətləri, qaçaq hərəkatı və xalq qəhrəmanı şəxsində Qaçaq Nəbinin ətrafı və s. məsələlərlə bağlı sistemli təhlillər aparmışlar.

Qəhrəmanlıq dastanları müstəvisində aparılan təhlillər, demək olar "Kitabi-Dədə Qorqud" dastanları üzərində qurulmuşdur. "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm" dastanları da bir qaynaq olaraq tezis, məqalə səviyyəsində özünə yer almış, ancaq geniş müstəvidə müxtəlif aspektləri ilə təhlil faktına çevrilməmişdir. Bütün təhlil-araşdırmalar qəhrəmanlıq dastanında tərbiyə məsələlərinin fundamental xarakterini aydınlaşdırmaqla daha təfərrüatlı yanaşmaları zəruri edir.

Birinci fəslin ikinci paraqrafı *"Qəhrəmanlıq dastanlarında tərbiyəvi fikirlərin elmi-pedaqoji əsasları"* adlanır. Dünya elmi-pedaqoji fikrinin çağdaş mərhələdə ortaya qoyduğu fundamental təsəvvür etnik yaddaş səviyyəsində qəhrəmanlıq dastanlarını üfiqi və şaquli müstəvidə təhlilə gətirməyi zəruri edir. Çünki bütünlükdə xalq yaradıcılığı və onun bir hissəsi olan *"qəhrəmanlıq dastanı xalqın tarixinin şifahi dərsliyidir"*[6]. Təhlillərdə qəhrəmanlıq dastanları hər iki müstəvidə tarix, mədəniyyət, etnogenez (bir neçə etnik komponentdən yeni etnosun formalaşması prosesi), invariant, əxlaqi-mənəvi dəyərlər və s. timsalında mükəmməl bir təsəvvürlə əhatələnir.

Ümumiyyətlə, qəhrəmanlıq dastanlarında əsas qaynaq olan xalq pedaqogikasından gələnlər bütün kontekstlərdə, qəhrəmanlıq timsalında ümumiləşdirilir. Burada ifadəsini tapan vətənpərvərlik, qəhrəmanlıq, mərdlik kimi ali dəyərlər və onun bir sistem olaraq uca tutulması müdrik qoca, mədəni qəhrəman statusunda ümumiləşdirilir. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanlarında vurğulanan "Oğuz elində onunla (Dədə

[6] Hacıyev T. "Dədə Qorqud kitabı": tariximizin ilk yazılı dərsliyi. Bakı: Elm və təhsil, 2014, s. 3

Qorqudla) məsləhətləşmədən bir iş görülməzdi. Nə dersə qəbul edərlərdi. Sözün tutub tamam edərlərdi" ifadəsi bütünlükdə Oğuz elində ağsaqqallıq institutunun təsəvvür mexanizmini müəyyənləşdirir. "Koroğlu" dastanında Koroğlunun Rövşən adı ilə tanındığı dövrü, Alı kişinin nəsihət və tövsiyələri, onun bir qəhrəman kimi formalaşana qədərki mənzərəsi və s. lazımı qədər aydınlıqla faktlaşır. Bütün bunlar qəhrəmanlıq dastanlarında tərbiyəvi fikirlərin mahiyyətində olanların ümumi məzmununu bir neçə istiqamətdə təhlilə gətirməyi mühüm məsələ kimi zəruriləşdirir:

a) qəhrəmanlıq dastanları tərbiyəvi fikirlərin qaynağı kimi tarixi-mədəni prosesin gedişi baxımından əsaslı mənbədir;

b) tərbiyəvi fikirlərin elmi-pedaqoji əsaslarının müəyyənliyi üçün dastanlar funksional imkanlılıqla şərtlənir;

c) xalq pedaqogikası timsalında dastanlarda özünü göstərən təlim və tərbiyə modelləri bir konsepsiya olaraq mükəmməl məzmunla faktlaşır;

ç) ibtidai düşüncədən gələn əxlaq, mənəviyyat, dəyər və s. kimi tabuların paradiqmatik xarakterini aşkarlamaq üçün geniş imkanlar yaradır;

d) əxlaq tərbiyəsi, eləcə də əqli tərbiyə, fiziki tərbiyə, əmək tərbiyəsi, estetik tərbiyə, ictimai tərbiyə və onun təzahür formalarının aydınlığı üçün zəngin faktura ilə səciyyələnir;

e) xalq pedaqogikası // xalq ədəbiyyatı // elmi pedaqogika müstəvisində mükəmməl təsəvvürün formalaşması üçün əsas olur və s.

Uşaqların yaş dövrləri, uyğun tərbiyəvi təsirlər, adət-ənənə, əməksevərlik və s. bütün dastanlarda bir xətt olaraq əsas götürülür və dastan düşüncəsinin ana axarını müəyyənləşdirir. Məsələn, "Qaçaq Tanrıverdi" dastanında başlanğıc epizoda deyilir: *"Tanrıverdi yenicə ərsəyə gəlirmiş. Onun cəmisi on iki yaşı varmış. Çox diribaş, qoçaq bir oğlan imiş. Günlərin birində İsmayıl kişi oğlu Tanrıverdini də yanına salıb Sulduza gəlir ki, bəlkə ona-buna günəmuzd iş görüb bir az pul-*

*para qazana"*[7]. Bədii mətnin sərgilədiyi məzmun bir istiqamətdə XIX əsrin ikinci yarısının ümumi vəziyyətini ehtiva edirsə, digər istiqamətdə uşaq tərbiyəsini, zəhmətkeşliyi on iki yaşında uşağın timsalında ortaya qoyur.

Qədim türklərin yaşam tərzi, sosial çevrə və ailə institutları haqqında çoxlu rəvayət və əhvalatlar vardır. Onlardan birində vurğulanır ki, *"Təlim üç yaşından başlayırdı"*[8]. Yakut rəvayətlərinin tarixin çox dərinliklərindən bizə daşıyıb gətirdiyi tərbiyə modeli möhkəm nizam əsasında 3 yaşdan 18 yaşa qədərki mənzərəni ortaya qoyur.

"Kitabi-Dədə Qorqud" dastanlarında bunun rəngarəngliklə görünən tipik nümunələri vardır. Məsələn, "Dirsə xan oğlu Buğacın boyu"nda tarixin daha əski çağlarından, dərinliklərdən gələn ənənənin özünəməxsusluğunda advermə mərasimi, uşaq tərbiyəsi, qəhrəmanlığın təlqini, onu şərtləndirən xüsusiyyətlər, təlimin üsul və yolları və s. məsələlərin çox mükəmməlliklə görünən formulları ilə qarşılaşırıq.

Qəhrəmanlıq dastanlarında tərbiyəvi fikirlərin görünüşü və elmi pedaqoji əsasları xalqın həyat təcrübəsinə, ənənəyə, şəxsiyyət təsəvvürlərinə, ailə, ictimai mühit səviyyəsində tərbiyənin düzgün qurulmasına, etnosun törə (mili dəyərlər, adət-ənənə) təsəvvürlərinin bir prinsip olaraq qorunuşuna bağlanır. Bütün bunlar qəhrəmanlıq dastanlarında tərbiyəvi fikirlərin elmi-pedaqoji əsaslarının bir qaynaq olaraq daşınması haqqında mükəmməl təsəvvür formalaşdırır və problemə ümumi konseptual baxışı zəruri edir.

Birinci fəslin ***"Dastanlarda tərbiyə problemlərinə ümumi baxış"*** adlanan üçüncü paraqrafda mövcud dastan nümunələrindən çıxış etməklə mahiyyətə aydınlıq gətirilir. Dastanın bir forma olaraq ehtiva etdiyi məzmun, poetik çalarların əhatəlilik dairəsi, batinindəki (içindəki) dinamiklik xarakteri və söyləyici auditoriyasındakı rəngarənglik bir bütöv olaraq üfiqi və şaquli müstəvidə etnosun əxlaq, mənəviyyat və tərbiyə məsələlərinə bağlanır. Bütün bunları nəzərə alaraq qəhrəmanlıq

---

[7] Yeddi dastan. (toplayıb tərtib edəni R.Rüstəmzadə). Bakı, Azərnəşr, 1989, s. 45

[8] Əsgər Ə., Məmmədəli Q. Türk savaş sənəti. Bakı: Yazıçı, 1996, s. 12

dastanlarında tərbiyənin ehtiva elədiyi məzmunu ümumi baxış müstəvisində müxtəlif aspektlərdə təhlilə gətirmək gərəyi yaranır.

a) etnik çevrədə tərbiyənin bir mənəviyyat və mövcudluq hadisəsi olaraq formalaşdırdığı təsəvvür;

b) ailə və sosial mühit səviyyəsində tərbiyə, mənəvi dəyərlərin qorunuşunda toplumun tərbiyə üsulları;

c) ayrı-ayrı yaş dövrlərində tərbiyə ilə bağlı örnəklərin klassik nümunələrinin xalq pedaqogikasında elmi-pedaqoji əsasları;

ç) estetik tərbiyənin dastan mühitində aparıcılığının məzmun və mahiyyəti;

d) fiziki tərbiyə, əmək tərbiyəsi ilə bağlı görüləcək işlərin (uşaqlara aşılanmasının) üsul və yolları;

e) etnosun şəxsiyyət təsəvvürlərinin qəhrəmanların timsalında təlqini;

ə) qəhrəmanlıq dastanlarında irsiyyət, mühit və tərbiyənin qarşılıqlı əlaqələri;

f) vətənpərvərlik, milli təəssübkeçlik, xeyirxahlıq və s. dəyərlərin dastanlarda tərbiyəvi dəyər olaraq aşılanmanın üsul və yolları;

g) etnosun tərbiyə haqqında təsəvvürlərinin tarixi-mədəni axarını izləmək üçün oynadığı mənbə funksiyası və s.

Dastan bir forma olaraq xalqın tərbiyə, əxlaq, təlim müstəvisində qan daşıyan damarıdır. "Manas", "Canqar", "Kitabi-Dədə Qorqud", "Qaçaq Süleyman", "Qaçaq Kərəm", "Səttarxan" və s. dastanlar bunun tipik nümunəsidir. Məsələn, "Qaçaq Süleyman" timsalında cəsur azərbaycanlı qızının mənliyi, haqsızlıq qarşısında ləyaqətlə dayanışı, mübarizliyi özünü bütün aspektləri ilə aydın şəkildə göstərir. "Qandal Nağı" dastanında qəhrəmanın həyat şəraitini və qəhrəmanlığa gedişini əks etdirən maraqlı epizodlar var: *"Dolanma sarıdan ümidlərini bircə öküzlərinə bağlamışdılar. Öküzlə meşədən odun gətirib satar, yer şumlayar, ona-buna iş görüb bir təhər dolanarmışlar. İllər keçir, Nağı on beş yaşına dolur. Nəbinin də on üç yaşı olur"*[9]. Burada uşaqların müxtəlif yaş dövrləri, daha doğrusu, uşaqlıq, yeniyetməlik və gənclik

---

[9] Yeddi dastan. (toplayıb tərtib edəni R.Rüstəmzadə). Bakı, Azərnəşr, 1989, s. 151

zamanının mənzərəsi, əmək tərbiyəsi, fiziki tərbiyə və s. bağlı bilgilər özünə yer alır. Ümumiyyətlə, qaçaq dastanları bütünlükdə XIX əsrin ikinci yarısının hadisələri əsasında yaranmışdır.

Dastanlar uşaqların dünyaya gəlməsindən, (tərbiyədə gen, irsiyyət məsələsindən), müxtəlif yaş dövrlərindəki yanaşmalardan, təlim və tərbiyənin məzmunundan, şəxsiyyət kimi formalaşmasına qədərki təsəvvürləri əhatələmək gücü ilə səciyyələnir. Pedaqoji fikir tarixinin bütün nümayəndələri müxtəlif səpkili araşdırma və təhlillərində konseptual yanaşmaları ilə tərbiyə probleminin mahiyyətinə xüsusi həssaslıq göstərmiş, onun genetik formulasını bir bütöv olaraq ortaya qoymağa çalışmışlar. Məsələn, "Oğuz Kağan" da Oğuz Kağanın müəyyənləşdirdiyi tərbiyə modeli oğlanları və cəmiyyət səviyyəsində mükəmməlləşir. "Kitabi-Dədə Qorqud" dastanlarında Qazan xan, Qaragünə (qardaşı), Uruz bəy (oğlu), Qarabudaq (Qaragünənin oğlu), Bamsı Beyrək, Aruz (Qazan xanın dayısı) və digər bəylər timsalında olan nizam kutsallığa (hüquqi tərbiyəyə) bağlanır.

"Koroğlu" dastanında "Durna teli" qolunda başlanğıc epizod Çənlibel timsalında xalq düşüncəsindəki tərbiyə metamodelinin mükəmməlliyini aydınlaşdırır. *"Dəlilər bölük-bölük olub məşq eləyirdilər. Eyvaz da yaraqlanıb, yasaqlanıb bir dəstə atlı ilə dava məşqinə çıxmışdı.*

*Koroğlu Dəmirçioğlu da yanında bir uca yerdə durub məşqə baxırdı. Xanımlar da onların yanında idilər"*[10]. Mətnin proyeksiyalaşdırdığı tərbiyə təsəvvürü Çənlibel timsalında münasibətləri, estetik tərbiyədən fiziki tərbiyəyə qədər Koroğlu, Nigar xanım və dəlilər arasında olan nizamın mükəmməlliyini ortaya qoyur. Xalqın zəngin mədəniyyət təsəvvürü, folklor yaddaşı onun həyatını təbii axarda nizamlayan tərbiyə probleminin etnik şüurdakı mükəmməlliyini aydınlaşdırır.

---

[10] Aşıq ədəbiyyatı antologiyası. Qəhrəmanlıq dastanları. (tərtib edənlər: M.Qasımlı, M.Allahmanlı). Üç cilddə, II c., Bakı: Meqa Print, 2017, s. 109

Dissertasiyanın “**Qəhrəmanlıq dastanlarında tərbiyənin məzmunu və aşılanması sistemi”** adlanan ikinci fəslində problem dörd paraqrafda ümumiləşdirilir. “***Qəhrəmanlıq dastanlarında tərbiyənin üsul və vasitələri”*** adlanan birinci paraqrafda konkret faktlardan çıxış etməklə mahiyyət aydınlaşdırılır. Məlum olduğu kimi, Azərbaycan qəhrəmanlıq dastanlarında tərbiyəvi ideyalar və onun ümumi sisteminin monoqrafik təhlilində ən mühüm məsələlərdən biri dastan nümunələrində özünə geniş yer alan tərbiyə üsullarının müəyyənləşməsidir. Etnosun əxlaq, mənəviyyat toplusu olan qəhrəmanlıq dastanları bütün kontekstlərdə milli düşüncəni, xalqın tərbiyə təsəvvürlərini və onun aşılanması yollarını bir bütöv olaraq özündə əks etdirmək gücü ilə müəyyənləşir. Zəngin dastan nümunələri tərbiyənin üsulları (inandırma, alışdırma, nümunə, nəsihət, rəğbətləndirmə və cəza) baxımından olduqca mükəmməl bir təsəvvürlə müəyyənləşir.

Tərbiyənin üsulları olaraq səciyyələnən inandırma, alışdırma, nümunə, nəsihət və s. bütünlükdə xalq pedaqogikasına və uzun zamanlar boyu əldə olunan təcrübəyə əsaslanır. Məlum olduğu kimi, *“tərbiyənin metod və vasitələri gənc nəslin tərbiyəsi ilə əlaqədar qarşıya qoyulan məqsəd və vəzifələrin səmərəli şəkildə yerinə yetirilməsinə xidmət edir”*[11]. Qəhrəmanlıq dastanları bütün parametrləri ilə məhz etnosun tərbiyə haqqında təsəvvürlərini, əsl-nəcabət (irsiyyət), mühit, ailə səviyyəsində olan müəyyənləşmiş normaların qorunuşu və tətbiqi məsələlərini bir bütöv olaraq əks etdirmək, gələcəyə daşımaq amalına köklənmişdir

Qəhrəmanlıq örnəkləri tərbiyənin üsul, vasitə və yolları kontekstində bütünlükdə etnosu ifadə etmək gücü ilə müəyyənləşir. Məsələn, “Kitabi-Dədə Qorqud” dastanlarında Bayındur xan//Qazan xan çərçivəsində olanlar, eləcə də Xan Qazan // Burla xatun // Uruz münasibətindəki tərbiyənin müəyyənlik konsepsiyası “Qaçaq “Nəbi” dastanında Nəbi // Həcər xanım, Nəbi // Mehdi (qardaşı) Nəbi// qaçaqlar, Nəbi // xalq və s. arasında olan nizam, davranış, münasibət bütün kontekstlərdə tərbiyənin etnik şüurda müəyyənləşmiş yol və üsullarına

[11] Talıbov Y., Ağayev Ə., İsayev İ., Eminov A. Pedaqogika. Bakı: Maarif, 1993, s. 186

hesablanır. “Qanlı qoca oğlu Qanturalı” boyunda Trabzon təkuru ilə Qanturalı qarşılaşmasındakı hadisələrin sıralanması tərbiyənin üsul və vasitələri anlamında tipik mənzərə ilə faktlaşır. Qanturalının silahdaşlarına müraciəti və onların söylədikləri (qəhrəmanı mədh) rəğbətləndirmə, nəsihət, həvəsləndirmə, inandırma kimi təsəvvürə yüklənir.

“Fətəli xan və Tuti Bikə” dastan rəvayəti sırf tarixi reallığa, xalqın mənəviyyat, əxlaq, qəhrəmanlıq təsəvvürlərinə hesablanmışdır. *“Tuti Bikə at belində tək-tənha qabağa çıxır. Fətəli xana deyir:*

*-Niyə nahaqdan qan axsın, iki tərəfdən də çox adam ölsün? Gəl ikimiz döyüşək, kim üstün gəlsə, o, qalib hesab edilsin.*

*Fətəli xan deyir:*

*-Mən Dərbəndi almağa gəlmişdim. Amma məğlub oldum. Çünki qarşıma kişi qeyrətli qız çıxdı”*[12]. Bütün bunlar qədim türk dövlət və tayfa strukturunda mövcud mükəmməlliyə hesablanır.

Azərbaycan ailəsinin münasibət və davranış sistemində dəqiq və aydın müəyyənliklər vardır. Belə ki, hər bir şəxs ailədə yaş statusundan və cinsindən asılı olaraq yerini və mövqeyini ortaya qoyurdu. Bunlar həm də ailə, tayfa və cəmiyyət timsalında nizamlanırdı. Tuti Bikə və Fətəli xan timsalında olan nümunə bunun tipik örnəyidir.

Etnosun yaşamını, həyat tərzini, xarici və daxili təhlükələrdən qorumaq üçün güclü təşkilatlanma, dəmir intizam və kifayət qədər böyük fiziki enerji, ağıl, düşünüb nəticə çıxarmaq kutsal (müqəddəs) prinsip olaraq əsas tutulurdu. Məsələn, “Koroğlu” dastanında “Dəmirçioğlunun Çənlibelə gətirilməsi” qolunda Dəmirçioğlunun sınanması bu baxımdan tipik örnəkdir. “Kitabi-Dədə Qorqud”da Bamsı Beyrəklə Banuçiçəyin, “Fətəli xan-Tuti Bikə” dastan rəvayətində Fətəli xanla Titibikənin, “Koroğlu” dastanında Dəli Həsənlə Koroğlunun, Dəli Həsənlə Dəmirçioğlunun, “Şah İsmayıl” dastanında Şah İsmayılla Ərəbzənginin, “Qaçaq Kərəm”də Qaçaq Kərəmlə İsrafil ağanın qarşılaşması bunun tipik nümunəsidir. Bunlar tərbiyəvi mahiyyətli əvəzsiz örnəklərdir.

---

[12] Koroğlunun nəvələri. (toplayıb tərtib edəni R.Rüstəmzadə). Gəncə: Əsgəroğlu, 2006, s. 34

Ailə çevrəsində və sosial sferada baş verənlər hamısı bir məqsədə, uğurlu nəticənin alınmasına, ləyaqətli vətəndaş təsəvvürünə hesablanmışdır. Məsələn, "Qaçaq Kərəm" dastanında Kərəmin atasının "o*ğul, igid basdığını kəsməz! Apar onları ötür. El bizi qınayar ki, gecə qonaq başı kəsmişik"*[13]. Bu mətn etnik düşüncədə özünə lazımı qədər yer almış münasibətlərə, milli-mənəvi dəyərlərin aparıcılığına, qonağa hörmət və qayğı kimi dəyərlərin uca tutulmasına hesablanır. "Qaçaq Kərəm" dastanından verdiyimiz nümunə cəza və nümunə (bağışlama) baxımından əvəzsiz bir örnəkdi. Bütün bunlar ayrı-ayrı dastan nümunələrində ana xətt kimi keçən tərbiyənin üsul və vasitələrinin kutsal bir sistemə hesablanmasının ən mühüm örnəyidir.

İkinci paraqraf ***"Dastanlarda şəxsiyyətin formalaşmasına təsir edən amillər"*** adlanır. Elmi-pedaqoji fikir bütün təhlillərində şəxsiyyətin formalaşması məsələsinə həmişə həssaslıqla yanaşmış və mahiyyəti açmaq kontekstində gərəkli konseptual mülahizələr yürütmüşdür. Zəngin əfsanə, rəvayət, nağıl, dastan nümunələri birbaşa bu kontekstdə möhtəşəmliklə və təfərrüatlı şəxsiyyət təqdimi ilə özünün ifadəsini tapır.

Qəhrəmanlıq dastanları və bütünlükdə Azərbaycan xalqının qəhrəman, şəxsiyyət təsəvvürü etnosun tarixi təcrübəsinə, reallıqlara, arxetiplərin ortaya qoyduğu faktlara bağlanır. Burada əsl-nəcabət (irsiyyət), mühit və tərbiyənin düzgün qurulması mühüm funksional səciyyəsi ilə diqqəti cəlb edir. "Koroğlu" dastanında "qoç quzudan quzu törər qoç olar, qoçaqlardan qoçaq olur, sultanım" düşüncəsi sırf bu mahiyyətin aydınlaşmasına köklənmişdir. Məsələn, Qazan xan timsalında *"bir gün Ulaş oğlu, Tulu quşun yavrusu, bizə miskin umudu, ümmət soyunun aslanı, Qaraçuxun qaplanı, qonur atın əyası, xan Uruzun ağası, Bayındır xanın göygüsü, Qalın Oğuzun dövləti, qalmış yigidin arxası Salur Qazan yerindən durmuşdu"*[14] . Göründüyü kimi, Oğuzun təsəvvüründə qəhrəmanı təqdimin və onun keyfiyyət göstəricilərinin sıralanmasının özünəməxsus sistemi vardır.

---

[13] Yeddi dastan. (toplayıb tərtib edəni R.Rüstəmzadə). Bakı, Azərnəşr, 1989, s. 6

[14] Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, s. 42

Qəhrəmanlıq dastanlarında əsl-nəcabət (irsiyyət), mühit (kollektiv), tərbiyə məsələləri bir bütöv olaraq müxtəlif aspektləri ilə özünün ifadəsini tapır. Məsələn, qəhrəmanlığın yaşarlığı və daşınışı kontekstində "Manas"da Manas (ata) // Semetey (oğul) // Setkey (nəvə), "Kitabi-Dədə Qorqud"da Bayundur xan (baba) // Burla xatun (ana) // Uruz (oğul), Ulaş (baba) // Qazan xan (ata) // Uruz (oğul), "Korolu" dastanında Alı kişi (baba) // Koroğlu (ata) // Həsən (Qurdoğlu –oğul), "Qaçaq Kərəm" dastanında Zal (baba) // İsgəndər (ata) // Kərəm (oğul) və s. timsalında klassik örnəkləri vardır. Bunlar hamısı irsiyyət müstəvisində şəxsiyyətin, etnomədəni dəyərlərin daşınışı nümunəsidir.

"Kitabi-Dədə Qorqud" dastanlarında bunun klassik nümunəsi "ol Ayişə, Fatimə soyudur" ifadəsi dastan təfəkküründə qəlibləşmiş tərbiyə təsəvvürünün göstəricisidir. Tərbiyənin uğurluluğu gen (irsiyyət) // ailə //mühit müstəvisində işlərin uğurluluğu sayəsində özünün mükəmməl nəticələrini verir.

"Koroğlu" dastanında olan Çənlibeldəki dəlilərin mühiti, onların yaşam tərzi, məşğuliyyəti, qarşılıqlı münasibətləri, kollektiv fəaliyyət nizamı və s. hamısı ciddi bir qanunauyğunluğa hesablanmışdır. *"Eyvaz igidlikdə, mərdlikdə dəlilər arasında ad qazanmışdı, canlara dəyən bir oğlan olmuşdu.*

*Koroğlunun bir xasiyyəti vardı ki, boş vaxtlarında həmişə dəlilərlə məşq eləyərdi. At minmək, nizə oynatmaq, qılınc vurmaq, qalxan tutmaq, ox atmaq onların səhər-axşam peşələri idi. "*[15]. Göründüyü kimi, burada dövrün özünün ciddi yaşam tərzi, həyati reallıqları kontekstində mükəmməl təqdimat var və mühit // şəxsiyyət timsalında prosesin dinamik xarakterini aydınlaşdırır.

"Oğuz Kağan"da Uluq Türk, "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud, "Koroğlu"da Alı kişi, "Qaçaq Kərəm"də Zal qızı Gülnaz, İsgəndər müdrik qoca, ağsaqqallıq statusunda tərbiyənin modelləşdirilmiş tipik nümunəsi olaraq görünürsə, qəhrəmanlıq xəttində "Kitabi-Dədə

[15] Koroğlu (tərtib edəni M.H.Təhmasib). Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1956, s. 124

Qorqud"da Qazan xan, "Koroğlu" dastanında Koroğlu, "Qaçaq Kərəm" dastanında Qaçaq Kərəm kimi tipik örnəyi vardır.

Qarşılıqlı münasibətlər, sosial çevrədə birliyin təmini və nizamlanması prinsipləri (ailə tərbiyəsi və hərbi tərbiyə müstəvisində), əcdad, qəhrəman, xilaskar təsəvvürü, hərbi əxlaq, əsgəri düşüncə (dözümlülük, hərbçinin keyfiyyətləri, hərbi intizam, şəhidlik, əsirə münasibət, xəyanətin bağışlanmazlığı, ana torpağa sədaqət), dövlət strukturu və onun mükəmməllik nizamı üzərində qurulan sistem (Oğuz elindəki və Çənlibeldəki nizam) bütün parametrlərdə etnosun əxlaq və mənəviyyat təsəvvürlərinə bağlanır. Məsələn, "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"da vurğulanır: *"Bir gün Ulaş oğlu Qazan bəy yerindən durmuşdu. Oğlu Uruz qarşısında yay söykəyib durardı. Sağ yanında qardaşı Qaragünə oturmuşdu. Sol yanında dayısı Aruz oturmuşdu"*[16].

"Koroğlu" dastanında da tarixi-mədəni ənənənin davamı kimi eyni mənzərənin şahidi oluruq. Koroğlu, Nigar xanım, Eyvaz, Dəli Həsən, Dəmirçioğlu və s. irsiyyət, mühit və tərbiyə baxımından ciddi bir mükəmməlliklə faktlaşır. Bütün bunlar dastanlarda şəxsiyyətin formalaşma prinsiplərinin bir tabu olaraq kutsallığını müəyyənləşdirir.

İkinci fəslin üçüncü paraqrafı ***"Qəhrəmanlıq dastanlarında tərbiyənin tərkib hissələri və onun məzmunu"*** adlanır. Qəhrəman dastanlarında mahiyyət məsələsi olaraq faktlaşan problemlərdən biri tərbiyə və onun tərkib hissələri ilə bağlı fikir və təsəvvürlərin sistemli şəkildə aydınlaşmasıdır. Xalq dastanları xalq pedaqogikasının dərslik kitabı olaraq tarixin ən dərin qatlarından bu dəyərləri əsrdən-əsrə daşımaq yolunu tutmuşdur. Burada əqli tərbiyə, ideya-mənəvi tərbiyə, əxlaq tərbiyəsi, fiziki tərbiyə və estetik tərbiyə mahiyyət məsələsi olaraq etnosu ifadəyə köklənmişdir. Hər bir dastan nümunəsi tərbiyənin uğurluluğu timsalında mövcud prinsiplərin kompleks şəkildə özünü ehtiva edə bilməsi imkanları ilə səciyyələnir.

Ağıl, zəka bütün uğurların başlanğıcı və tərbiyə qapısının açarı olaraq həmişə birinci sırada möhtəşəmlik sərgiləmişdir. "Kitabi-Dədə

---

[16] Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1978, s. 72

Qorqud" dastanlarında Dədə Qorqudun öyüd-nəsihətləri, "Oğuz Kağan" dastanında Oğuz Kağanın, Uluq Türkün, "Koroğlu"da Alı kişinin, "Qaçaq Kərəm"də İsgəndərin və s. dedikləri əqli tərbiyənin ən mükəmməl örnəyi olaraq faktlaşır. Bir başqa örnək, "Kitabi-Dədə Qorqud" dastanının "Müqəddimə"si əqli tərbiyənin klassik örnəyi olaraq bütün zamanları, etnosun dünyagörüşünü, həyat fəlsəfəsini, bütün bilgilərini (elmi və ruhani, əqli və nəqli), tarixi-mədəni yaddaşını, təcrübəsini əhatə etmək gücü ilə mükəmməldi. Məsələn, "Koroğlu" dastanının "Alı kişi" qolunda gözlərinin Hasan xan tərəfindən çıxarılmasından sonra oğlu Rövşənin (və el-obanın) etmək istədikləri müqabilində Alı kişi ağıl və təmkinlə məsələyə müdaxiləsi bunun tipik örnəyidir.

Dastanlar ailə institutunun tərbiyə təsəvvürlərini əmək tərbiyəsindən fiziki tərbiyəyə qədər epizod, hadisə, əhvalat səviyyəsində faktlaşdırır. "Hacı Tağı" dastanında: *"Atası öləndə Hacı Tağı hələ uşaq idi. Onu əmisi böyüdüb saxlamışdı. Oydu ku, əmisinin sözünün birini iki eləməzdi. Atını yəhərləyib Mehman adlanan yerə yola düşdülər"*[17] . Qaçaq dastanları tərbiyənin ayrı-ayrı komponentləri, yanaşma üsullarının daha geniş şəbəkəli olması və tarixi reallığı hansı səviyyədə əks etdirməsi baxımından əsaslı faktura ilə səciyyələnir.

Milli mənlik şüurunun formalaşması, milli ləyaqət tərbiyəsi, doğma yurda məhəbbət ("Koroğlu" dastanında "şah da gəlsə Çənlibelə qoymaram", "Nigar, Çənlibel budu, bu" və s.), ata-anaya hörmət və qayğı, doğma yurda məhəbbət, sadəlik, təvəzökarlıq, düzlük, doğruçuluq, dostluq, yoldaşlıq, sadəlik, əməksevərlik, humanizm və s. kimi dəyərlər dastanın bütünlükdə ana xəttini müəyyənləşdirir. Ona görə də dastan yaradıcılığı həmişə elmi-nəzəri fikrin tədqiqatçıları tərəfindən müxtəlif aspektlərdə təhlilə gətirilmiş və hansı mənəvi-əxlaqi dəyərlərə, etnosu ifadə üsullarına yüklənməsi bir problem olaraq diqqət mərkəzində durmuşdur.

[17] Yeddi dastan. (toplayıb tərtib edəni R.Rüstəmzadə). Bakı, Azərnəşr, 1989, s. 97

Düzlük, doğruçulluq, sadəlik, təvəzökarlıq, dostluq, yoldaşlıq, əməksevərlik, humanizm və s. kimi yüksək dəyərlərin qaynağı və həm də tipik örnəyi olan qəhrəmanlıq dastanları öz mahiyyətində bədii-estetik tərbiyənin faktorlarını əks etdirmək baxımından da əvəzsizdir. Bu nümunələr yüz illər boyu ozanların, baxşıların, akınların, manasların, aşıqların repertuarında xalqın bədii-estetik zövqünü, ruhani dünyasını ayaqda saxlamaq kimi bir ideala köklənmişdir. Dastanlar estetik tərbiyə müstəvisində xalqın əxlaq, mənəviyyat və gözəllik təsəvvürlərini əhatələmək kimi yüksək idealla müəyyənlşir. *"Deyirlər ki, Koroğlu belə dönüb baxanda day Aşıq Cününda sorğu-sual olmazdı. O saat əlini üçtelli saza atıb ortaya çıxardı.*

*Aşıq Cünün sazı döşünə basıb, bir-iki ağız deyəndən sonra üzünü Koroğluya tutdu. Min yerdən "Afərin!.. Səd Afərin" dedilər"*[18]. Dastanın, ümumiyyətlə qəhrəmanlıq dastanlarının enerji qaynağı, nüvəsi bir isitqamətdə xalqın estetik müstəvidə münasibətlər sistemi üzərində qurulmasıdur. Bütün bunlar xalq dastanlarında tərbiyənin mahiyyət məsələsi olaraq aparıcılığını sərgiləyir və ibtidai düşüncədən günümüzə qədərki funksional səciyyəsi haqqında dolğun təsəvvür formalaşdırır.

İkinci fəslin sonunsu paraqrafı ***"Dastanlarda ailədə uşaqların tərbiyəsinə təsir edən amillər və qadının tərbiyəedici rolu"*** adlanır. Azərbaycan qəhrəmanlıq dastanlarının sərgilədiyi fundamental təsəvvürdə ən mühüm istiqamətlərdən biri ailə tərbiyəsi və uşaqların tərbiyəsində ailə münasibətlərinin funksional rolu məsələsidir. Bu müstəvidə aparılan təhlillər xalqın ailə (tayfa) təsəvvüründə prosesin gedişini, münasibətlərin üfiqi və şaquli müstəvidə sərgilədiyi məzmunu aydınlaşdırmaq məqsədi daşımış və həmişə də maraqlı örnəklərin ortaya çıxması ilə səciyyələnmişdir.

Azərbaycan qəhrəmanlıq dastanları bütün parametrlərdə ali dəyərlərin daşınışına köklənmişdir. Məsələn, ana məhəbbəti timsalında Qazan xanın bütünlükdə evini çapıb talayan, "tovla-tovla şahbaz atlarını, qatar-qatar dəvələrini" aparan Şöklü Məliyə *"qarıcıq anamı gətirmisən*

---

[18] Koroğlu (tərtib edəni M.H.Təhmasib). Bakı: Azərbaycan SSR Elmlər Akademiyası, 1956, s. 99

*vergil mənə savaşmadan, uruşmadan geri dönəlim, gedəlim*" [19] deyir. Və yaxud "Dirsə xan oğlu Buğacın boyu"nda oğlunun ovdan qayıtmadığını görən Xan qızı *"yalınz oğlum xəbərini, Dirsə xan, degil mana*"[20] söyləyir. Qədim türklərdə ailə və cəmiyyət münasibətlərində qadına olan həssaslıq, qadın//ana təsəvvürü həmişə bir meyar, ölçü olaraq digər məsələlər üçün əsas olmuşdur.

Qəhrəmanlıq dastanları ailədə qadının yeri, ailə münasibətləri, övlaq tərbiyəsi baxımından lazımı qədər maraqlı örnəklərlə səciyyələnir. "Koroğlu" dastanında Koroğlu // Nigar xanım // Eyvaz şəxsində bunun klassik nümunəsi vardır. "Eyvazın Çənlibelə gətirilməsi" məhz övlad, ailə münasibətlərinə və onun kutsal nizamına köklənmişdir. Dastan örnəkləri müxtəlif səviyyələrdə ailə münasibətləri, ailə tərbiyəsi, qadının bu münasibətlərdə funksional rolu, övlad tərbiyəsi və onun ümumi meyar-prinsiplərinə xüsusi həssaslıq göstərmişdir. N.Tusi vurğulayırdı ki, *"uşaqları mehribanlıq və məhəbbət doğuran kəramətlərlə tərbiyə etmək lazımdır, xüsusilə ağıla, şüura, idraka təsir edən başa salmaq yolu ilə"*[21]. Xalq dastanları ailə münasibətlərini, tərbiyə təsəvvürünü, qadının uşaq tərbiyəsində funksional rolunu, əcdadlara, soy-kökə ehtiram məsələsini aydınlaşdırmak və tarixi-mədəni mənzərənin gedişini izləmək baxımından əvəzsizdir. Alı kişi // Koroğlu xəttində hadisələrin gedişi, Rövşənin davranış və münasibətləri, atanın öyüd nəsiətləri və ona bir övlad olaraq oğulun əməl etməsi epos kontekstində mükəmməl nümunə olaraq faktlaşır.

Qəhrəmanlıq dastanları xalqın ailə münasibətlərindəki təsəvvürlərini, qadının bu münasəbitlərdə funksional rolunu, onun törədici və tərbiyəedici funksiyasını, ata // ana // övlad münasibətlərindəki nizamın tabu olaraq qorunuşunu, ailə üzvlərinə məhəbbət və əjdadlara ehtiram kimi kutsal dəyərləri aydınlaşdırmaq baxımından ən fundamental qaynaqdır. Məsələn, qadına hörmət, törə adət-ənənələrinə ehtiram baxımından dastan lazımı qədər maraqlı

---

[19] Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1978, s. 41
[20] Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1978, s. 26
[21] Tusi N. "Əxlaqi-Nasiri. Bakı: Elm, 1989, s. 156-157.

örnəklərlə səciyyələnir: *"Kərəm generalın getdiyi faytonun qabağına çıxır. Fayton dayanır. Bu zaman Kərəmin adını eşidən generalın da, arvadının da qorxudan rəngi ağarır. Bunu görən Kərəm deyir:*

*-Bacı, niyə qorxursan, biz qadına əl qaldırmırıq"*[22]. Bütün bunlar xalqın mənəviyyat, əxlaq, xeyirxahlıq, mərdlik, namərdlik və s. kimi təsəvvürlərinə bağlanır. Və yaxud da "Qaçaq Süleyman" dastanında Gülsümün baş verənlər qarşılığında qətiyyətli addımları buna nümunədir. *"Qız deyil, nər oğlu nərdi. Dədəsinin intiqamını alıb, halal olsun"!*[23]. Gülsümün qəhrəmanlığı özlüyündə Azərbaycan xalqının qəhrəmanlıq tarixində baş verən qadın igidliklərinin tipik örnəyidir. Bütün bunlar Azərbaycan qəhrəmanlıq dastanlarının mahiyyət məsələsi olaraq xalqın qəhrəmanlıq təsəvvürlərini bir bütöv olaraq ailə tərbiyəsi müsətisində mükəmməlliklə sərgilədiyini aydınlaşdırır.

Tədqiqat zamanı aşağıdakı **nəticə** alınmışdır.

1. Azərbaycan qəhrəmanlıq dastanları təkcə bədiilik baxımından deyil, həm də xalq pedaqogikasının əsaslı qaynağı olaraq möhtəşəm təsəvvür formalaşdırır.

2. Dastanların ana qaynağını müəyyənləşdirən tərbiyəvi epizod, əhvalat və hadisələr ilkin təsəvvürlərdən günümüzə qədərki etnik təsəvvürləri aydınlaşdırmaq üçün mənbə funksiyasını yerinə yetirir.

3. Zəngin xalq yaradıcılığı etnosu ifadə kodu olaraq onun tərbiyə və mənəviyyat fəlsəfəsini təqdim funksiyasına köklənmişdir.

4. Dastan janr səviyyəsində xalqın yaradıcılıq potensiyasını ifadəyə köklənirsə, onun paradiqmatik səviyyəsi etnosun mənəvi zənginliyinə, ailə tərbiyəsindən dövlət təsəvvürününə qədər bütöv bir düşüncənin təqdiminə yüklənir.

---

[22] Koroğlunun nəvələri. (toplayıb tərtib edəni R.Rüstəmzadə). Gəncə: Əsgəroğlu, 2006, s. 51

[23] Yeddi dastan. (toplayıb tərtib edəni R.Rüstəmzadə). Bakı, Azərnəşr, 1989, s. 72

5. Dünya dastan örnəkləri epos təsəvvüründə etnik sistemin şəxsiyyət və toplum təsəvvürlərini, onun ailə (tayfa) institutu səviyyəsində nizamını, yaşam konsepsiyasını, davranış, əxlaq, etnik yaddaş haqqında qəlibləşmiş münasibətlərini əhatələyir.

6. Türk xalqlarının zəngin dastan örnəkləri tarixin ayrı-ayrı dönəmlərindəki etnik toplim təsəvvürlərini, ailə münasibətlərindəki kutsal dəyərləri, bu münasibətlərin bir tabu olaraq qəlibləşməsi mənzərəsini əhatələməklə nəzər-diqqəti cəlb edir.

7. Qəhrəmanlıq dastanları özlüyündə bütün aspektləri ilə xalqın tərbiyə, əxlaq, mənəviyyat dərsliyidir.

8. Xalqın həyat bilgiləri, qavram və dərk üsulları, zəngin məişəti, dünyagörüşü, fəlsəfi düşüncələri, ailə və toplum münasibətləri, şülən mərasimləri, müxtəlif səpkili ritualları, qəhrəmanlıq təsəvvürləri və s. hamısı bir çeşni olaraq epos və dastan örnəklərində daşınmışdır.

9. Azərbaycan qəhrəmanlıq dastanları XIX əsrdən bu yana müxtəlif səviyyələrdə təhlillərin mövzusuna çevrilmişdir. Folklorşünaslar, etnoqraflar, tarixçilər, musiqişünaslar, dilçilər gərəkli elmi araşdırmalar aparmış və bu müstəvidə lazımı qədər gərəkli elmi baza yaradılmışdır.

10. Elmi-pedaqoji istiqamətdə aparılan sistemli təhlillər, demək olar, “Kitabi-Dədə Qorqud” dastanlarında mənəvi tərbiyə və ümumiyyətlə, tərbiyə məsələlərinə həsr olunmuşdur.

11. “Koroğlu” dastanı XIX əsrdən başlayaraq Avropa və rus şərqşünaslarının diqqət mərkəzində olmuş və struktur, məzmun xətləri ilə yanaşı, qəhrəman, şəxsiyyət və mühit müstəvisində tərbiyə problemləri də aparılan təhlillərdə özünə yer almışdır.

12. Azərbaycan folklorşünaslığında tərbiyə məsələləri araşdırmanın bir aspekti olaraq dastanın tərbiyəvi əhəmiyyəti səviyyəsində qısa və konkretliklə təhlilə gətirilmişdir.

13. Ayrı-ayrı yaş dövrləri, ona yanaşma üsulları, milli-mənəvi dəyərlərin təlqini, əməyə məhəbbət, əməksevərlik, fiziki tərbiyə, ata-anaya hörmət, dostluq, yoldaşlıq və s. kimi dəyərlərin mənimsədilməsi bir bütöv olaraq dastanlarda özünə yer alır.

14. Dastanlar ayrı-ayrı yaş mərhələlərində uyğun tərbiyəvi üsulların seçilməsi və adət-ənənələrin düşünülmüş təlqini baxımından da əvəzsiz mənbə funksiyasını yerinə yetirir.

15. Qəhrəmanlıq dastanlarının ana xəttində etnosun qəhrəmanlıq fəlsəfəsi və onun mahiyyətini sərgiləyən şəxsiyyət konsepsiyası dayanır.

16. Əqli tərbiyə, ideya-mənəvi tərbiyə, əxlaq tərbiyəsi, əmək tərbiyəsi, fiziki tərbiyə, estetik tərbiyə qəhrəmanlıq dastanlarının qan daşıyan damarları olaraq əvəzsiz faktura ilə müəyyənləşir.

17. Dastan təfəkkürü bütün komponentləri, təqdim üsulları ilə estetik tərbiyə prinsiplərinə, onun ümumi ahənginə köklənməklə əbədiyaşarlıq qazanmışdır.

18. Bütün bunlar qəhrəmanlıq dastanlarında tərbiyə məsələlərinin yüksək ideallara, etnosu ifadəyə hesablanmasının ən möhtəşəm örnəyi kimi geniş imkanlılığını və müxtəlif istiqamətli təhlillərin aparılma gərəkliyini ortaya qoyur.

Apardığımız tədqiqat işi ilə əlaqədar aşağıdakı təkliflərimizi bildirməyi vacib hesab edirik.

-Orta ümumtəhsil məktəblərində tədris planında və ədəbiyyat fənninin proqramlarında müvafiq dəyişikliklər aparmaqla, dastanların ehtiva etdiyi tərbiyəvi ideyaların daha yüksək səviyyədə tədrisini həyata keçirməklə təlimin səmərəliliyini və keyfiyyətini artırmaq olar.

- Azərbaycan qəhrəmanlıq dastanlarında tərbiyəvi ideyaların düzgün mənimsədilməsi, yaradılmış milli-mənəvi dəyərlərin daha yaxşı dərk edilməsinə imkan və şərait yaradar.

-Böyüyən nəslin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi üçün qəhrəmanlıq dastanlarının aparıcı süjet xəttini müəyyən edən tərbiyəvi ideyaların forma və məzmun anlayışına elmi, fəlsəfi aspektdən yanaşmaq, qarşıya qoyulmuş məqsədə daha tez çatmağa köməklik göstərmiş olar.

- Qəhrəmanlıq dastanlarında tərbiyəvi ideyalar sistemini faktlaşdıran müxtəlif vasitələrdən yerli-yerində istifadə etməklə vətənə, torpağa, milli-mənəvi dəyərlərə olan inanc və sevgini daha da artırmış olar.

- Azərbaycan qəhrəmanlıq dastanlarında tərbiyəvi ideyaların təbliği ilə əlaqədar disputların, konfransların və s. tədbirlərin keçirilməsi inkişaf edən nəslin şəxsiyyət olaraq formalaşmasına müsbət təsirini göstərə bilər.

-Dastanlarında tərbiyəvi ideyaların sistemli şəkildə böyüyən nəslə aşılanması onların hərbi xidmətə hazırlanmalarına, milli mənlik ruhunun yüksəldilməsinə səbəb olar.

-Nüfuzlu xarici mətbu orqanlarında Azərbaycan qəhrəmanlıq dastanlarında tərbiyəvi ideyaların müsbət əhəmiyyəti haqqında elmi məqalələrlə çıxışlar etmək, onun bəşər mədəniyyətinə verdiyi töhvələri qeyd etmək xalqımızın çox qədim keçmişə malik olması haqqında da əsaslı dəlil-sübut və fakta çevrilə bilər.

Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı *tezis və məqalələrində* öz əksini tapmışdır:

1.”Koroğlu” dastanında milli-mənəvi tərbiyə və onun sistemi //Xırdalan: Journal of Baku Engineering University, Philology and Pedaqogy. An Internatoinal Journal, -2019. Volume1, Number2, -s.79-85.
2.Azərbaycan qəhrəmanliq dastanlarında vətənpərvərlik tərbiyəsi məsələləri // Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi əsərlər,-2020. Cild 8, № 5,- s.50-57.

3.Qəhrəmanlıq dastanlarının tədqiqində tərbiyə məsələləri // Bakı: Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. ADPU,- 2020. Cild 68, №3, -s.40-46.
4.Qəhramanlıq dastanları- xalqın milli-mənəvi dəyərlər toplusu //Naxçıvan: "Naxçıvan" Universiteti. Elmi Əsərlər (iqtisadiyyat, filologiya, tarix,coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat),- 2020. Cild 19, № 4,- s.121-126.
5.Qəhrəmanlıq dastanları pedaqojı fikrin enerji qaynaği kimi // Bakı: Azərbaycan Dillər Universiteti. Elmi Xəbərlər.Research Papers. Вестник,- 2020. №2, Proseedings Book,- s.97-102.
6.Qəhrəmanlıq dastanlarındakı Azərbaycan qadını obrazının təlim-tərbiyə prosesindəki rolu // Naxçıvan: "Naxçıvan" Universiteti.Elmi Əsərlər(iqtisadiyyat, filologiya, tarix, coğrafiya.pedaqogika və psixologiya, riyaziyyat),-"Nuh", 2021. № 3(22),- s.228-233.
7.Проблемы исследования в научно-педагогической литературе вопросов воспитания в героических эпосах // Warsaw, Poland: International Journal of Innovative Technologies in Social Science. RS Global,- June 2021. №2(30),- p.30-34.
8. Национально-духовные ценности, семейное воспитание в героических эпосах и его общие задачи // Ukraine: Humanities Science Current Issues:Interuniversity collection of Drohobych Ivan Franko State Pedagogical University Young Scientists Research Papers,- 2021. Issue №35; Volume 6, - p.292-298.
9.Xalq dastanlarında ailə tərbiyəsi və onun ümumi əsasları // Doktorantların və Gənc Tədqiqatçıların XXIII RespublikaElmi Konfransı,-Bakı: Azərbaycan Memarlıq və İnşaat Universiteti,- 03-04.12,2019,- 2cilddə, I cild,- s.493-496
10.Qəhramanlıq dastanlarında tərbiyəvi fikirlər və onun elmi-pedaqoji əsasları // IV international scientific conference of Young Researcheres proceedings,-Xırdalan: Baku Engineering Unuiversity,-05-06. 2020,- Section IV,- p.1267-1270.

11.Women's upbringing role in heroic epics // The 8th International Scientific and Practical Conference,- Manchester, Great Britain: 26-28.12, 2020, - №3(39),- p.929-934.
12."Koroğlu" dastanının "Alı kişi" qolunda tərbiyə məsələləri // Cəmiyyətə inteqrasiya və sosial adaptasiya: nəzəri və praktik aspektlər. Respublika elmi konfransı,- Sumqayıt: Sumqayıt Dövlət Universiteti,- 26-27.11,2020, -№ 8,- s.170-174.
13.Вопросы идейно-нравственного воспитания в дастане «Гачаг Сулейман"// VI-th İksad International Congress on Sosial Sciences,- Hungary, Istvan: Szechenyi Istvan University,- 26-28.03,2021,- Proseedings Book,- p.615-618.

Dissertasiyanın müdafiəsi 22aprel 2022-ci il tarixdə saat 12.00-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı ş., Ü. Hacıbəyli küçəsi 68, AZ 1000

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 18 mart 2022-ci il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.03.2022
Kağızın formatı: 64x84
Həcm: 47 622
Tiraj: 100